# 525-ci qəzet

2 avqust 2012-ci il, cümə axşamı, №137 (3693). Qiymәti 20 qәpik

www.525.az


# Azərbaycan Xəzərdə RLS-lər quraşdıracaq

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN HESABATINDA DEYİLİR Kİ, BU RLS-LƏR VASİTƏSİLƏ DƏNİZ KƏŞFİYYATININ APARILMASI VƏ QAÇAQMALÇILIQ TƏHLÜKƏSİ MÜƏYYƏN EDİLƏCƏK

ABŞ Dövlət Departamenti Azərbaycanın 2011-ci ildə terrorizmlə mübarizə çərçivəsində gördüyü işləri yüksək qiymətləndirərək, bu istiqamətində qanunvericilik və praktik sahələrdə qazanılan uğurları diqqətə çatdırıb.

AzərTAc-ın məlumatına görə, ABŞ Dövlət Departamentinin 2011-ci il üçün terrorizmlə mübarizəyə həsr olunmuş məruzəsində deyilir: "Azərbaycan Qafqazdan insanların, malların və pulların keçirilməsinə səy göstərən terrorçu təşkilatlarla fəal mübarizə aparır. Azərbaycan hökuməti ölkədə terrorçu vasitəçilərin azaldılmasında müəyyən uğurlar qazanmış və onların fəaliyyətinə qarşı fəal mübarizə aparır".

İyulun 31-də dərc edilmiş məruzə ABŞ xarici siyasət idarəsinin saytında yerləşdirilib.

Eyni zamanda, 2011-ci il üçün məruzədə Azərbaycan ərazisində terrorçuluq fəaliyyəti ilə məşğul olmaqda şübhəli bilinən qrupların və onların vasitəçilərinin üzə çıxarılması istiqamətində Azərbaycan hüquq-mühafizə orqanlarının fəaliyyəti yüksək qiymətləndirilir. Bundan əlavə, dövlətin quru və dəniz sərhədlərinin təhlükəsizliyinin möhkəmləndirilməsi sahəsində də irəliləyiş qeydə alınıb.

Sənəddə deyilir: "Azərbaycan hökuməti bioterrorizmin potensial təhlükələrinin tədqiq ediləcəyi müasir obyekt — Mərkəzi Meteorologiya Laboratoriyasının modernləşdirilməsini başa çatdırıb. Kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması çərçivəsində Azərbaycan hökuməti Hərbi Dəniz Donanması, Sahil Mühafizəsi və Dövlət Sərhəd Xidməti tərəfindən dəniz kəşfiyyatının aparılması və qaçaqmalçılıq təhlükəsinin müəyyən edilməsi üçün istifadə etdiyi Xəzər boyunca yerləşən yeddi radiolokasiya stansiyasının dəstəklənməsi üçün məsuliyyəti öz üzərinə götürür".

Məruzədə vurğulanır ki, sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində Gəncə Beynəlxalq Hava Limanında yenidənqurma işlərindən sonra yeni monitorların quraşdırılması diqqətə çatdırılıb. Xüsusi proqramın köməyi ilə monitorlardan alınan məlumatlar müxtəlif sərhəd məntəqələrində toplanıb təhlil ediləcək.



ABŞ Dövlət Departamenti bildirib ki, çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizənin qiymətləndirilməsinə dair Ekspert Qrupunun (MONEY üzvü olan Azərbaycan hökuməti 2009-cu ildən çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizədə yüksək səviyyədə peşəkarlıq nümayiş etdirir.

Məruzədə deyilir: "2011-ci il ərzində Azərbaycanın və digər Xəzəryanı dövlətlərin təmsilçilərindən ibarət işçi qrupları hüquq mühafizə orqanlarının Xəzər dənizində terrorizm, qaçaqmalçılıq, narkotiklərin qeyri-qanuni dövriyyəsi və mütəşəkkil cinayətkarlıqla mübarizəyə yönəldilmiş səylərinin əlaqələndirilməsi üçün dəfələrlə görüşüblər".

# "Qızıl Xaç"ın nümayəndələri azərbaycanlı əsirlə görüşüblər

"FİRUZ FƏRƏCOV KÖNÜLLÜ ƏSİR DÜŞMƏYİB, ONU ERMƏNİ XÜSUSİ TƏYİNATLI DƏSTƏLƏRİ ƏSİR GÖTÜRÜBLƏR"

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirə baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin mətbuat katibi Şəhla Qəhrəmanovanın APA-ya verdiyi məlumata görə, başçəkmə zamanı əsirə ailəsindən bir "Qızıl Xaç" məktubu çatdırılıb, əsirdən isə iki "Qızıl Xaç" məktubu alınıb.

Qeyd edək ki, Azərbaycan Müdafiə Nazirliyi Silahlı Qüvvələrin əsgəri, 1992-ci il təvəllüdlü Fərəcov Firuz Mirzə oğlu qoşunların təmas xəttinin Tovuz rayonu istiqamətində azaraq erməni silahlı bölmələrinə əsir düşüb.

Xatırladaq ki, hazırda Azərbaycanda Ermənistan vətəndaşları olan bir ailə saxlanılır. Onlar 2010-cu ilin yanvarında Azərbaycan tərəfə keçiblər.

Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Ermənistanda saxlanan azərbaycanlı hərbi əsirin məktublarını onun ailəsinə verməkdən imtina edib.

Bu barədə APA-ya əsir Firuz Fərəcovun ailəsindən məlumat verilib. Məlumata görə, dünən BQXK-nin Azərbaycan nümayəndəliyinin əməkdaşları əsirin ailə üzvləri ilə görüşüblər. Beynəlxalq qurumun nümayəndələri F. Fərəcovun vəziyyətinin yaxşı olduğunu və əsirdən məktub gətirdiklərini bildirsələr də, həmin məktubu valideynlərinə verməkdən imtina ediblər. Əsirin ailəsi bu barədə aidiyyəti dövlət orqanlarına məlumat verib. BQXK-nın Azərbaycan nümayəndəliyindən isə bildirib ki, komitənin özünün müvafiq iş prinsipləri və əməl etməli olduğu prosedurlar var. Məktubun ailəyə çatdırılması ilə bağlı prosedura hələlik başa çatmayıb.

Bu arada Azərbaycan Silahlı Qüvvələrinin ermənilərə əsir düşmüş əsgəri Firuz Fərəcovla bağlı mətbuat konfransı keçirilib. Tədbirdə çıxış edən hərbi ekspert Üzeyir Cəfərov erməni mətbuatında Firuz Fərəcovla bağlı yanlış məlumatların yayıldığını bildirib: "Ermənilər məlumat yayırlar ki, Firuz Fərəcov ağ bayraq qaldıraraq Ermənistan tərəfinə keçib. Özlərini dünyanın ən humanist ölkəsi kimi qələmə verirlər. Guya onu həmin vaxt öldürə bilərdilər, lakin öldürməyiblər. Əslində Firuz Fərəcov erməni xüsusi təyinatlı dəstələri tərəfindən əsir götürülüb. Bu bir faktdır. Hazırda hərbi prokurorluq faktla bağlı araşdırmalara başlayıb".

Ü.Cəfərov Firuz Fərəcovla bağlı bir sıra qurumlara müraciət etdiklərini bildirib: "Biz onun məsələsini diqqətDə saxlamaq üçün ATƏT-in Minsk Qrupunun həmsədrlərinə, Beynəlxalq Qırmızı Xaç Komitəsinə, Azərbaycan respublikasının əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına və Azərbaycan Kütləvi İnformasiya vasitələrinə müraciət etmişik. Biz həmin qurumları işdə maksimum fəallıq göstərməyə çağırırıq".

# Bakıda havanın temperaturu yenidən yüksəlir

ÖLKƏNİN ŞİMAL VƏ QƏRB RAYONLARINDA ŞİMŞƏK ÇAXACAĞI, QISAMÜDDƏTLİ YAĞIŞ YAĞACAĞI GÖZLƏNİLİR



Yaxın 2 gündə hava şəraitinin əsasən yağmursuz keçəcəyi, temperaturun ötən günlərə nisbətən yüksələcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 30-35 dərəcə isti olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27, Türkan, Hövsan, Şıx, Sahildə 27-28 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 32-37, dağlarda gecə 11-16, gündüz 21-26 dərəcə isti olacaq.

## Prezidenti kino xadimlərini mükafatlandırdı

Azərbaycan prezidenti kino xadimlərinə fəxri ad və fəxri təqaüdün verilməsi haqqında sərəncamlar imzalayıb. Sərəncama əsasən, Əfəndiyev Yalçın Heydər oğlu və Kazımov Aydın Ələsgər oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri veriləcək. Onlar bu təqaüdə Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə layiq görülüblər. Dövlət başçısının digər sərəncamı ilə Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə Varnovski Yuri Yuryeviçə "Əməkdar İncəsənət Xadimi", Orucova Nahidə Mülük qızına "Əməkdar Artist", daha 6 nəfərə isə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilib.

İlham Əliyev kino xadimlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında da sərəncam imzalayıb.

Sərəncama əsasən, Abdullayeva Validə Rüstəm qızı, Hacıyeva Nailə Bahadur qızı, Qafar-zadə Məlahət Xanış qızı və Qasımova Sevil Əbilhəsən qızı "Tərəqqi" medalı ilə təltif olunublar. Adı çəkilən şəxslər Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətlərinə görə bu medala layiq görülüblər.

## "Suriyadakı səfirliyimiz öz işini normal rejimdə davam etdirir"

Azərbaycanın Suriyadakı səfirliyi öz işini normal rejimdə davam etdirir. Bu barədə APA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Nazirlikdən bildiriblər ki, səfirliyin fəaliyyətində hər hansı dəyişiklik yoxdur.

Qeyd edək ki, diplomatik korpusun yerləşdiyi Dəməşq şəhərində hökumət və müxalifət qüvvələri arasında qızğın döyüşlər davam edir. Müxtəlif mənbələrin verdikləri məlumata görə, müxalifət qüvvələri şəhərin bir sıra məhəllələrini öz nəzarətinə götürməyə müvəffəq olub. Döyüşlərdə hər iki tərəfdən yüzlərlə insanın öldüyü bildirilir, bu say hər gün artmaqdadır.

# Bakıda məcburi köçkünlərin məskunlaşdığı daha bir yataqxanada yanğın oldu

Dünən Bakıda, Binəqədi rayonunda "Ramin" şadlıq evinin yaxınlığındakı məcburi köçkünlərin məskunlaşdığı yataqxananın 4-cü mərtəbəsində yanğın başlayıb. Yataqxanada məskunlaşan sakinlər binanı tərk ediblər. Yanğın zamanı bir neçə dəfə partlayış səsləri də eşidilib. Yanğın binanın yaxınlığındakı bazara da keçib. Yanğının söndürülməsinə Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidmətinin 10-dan artıq yanğınsöndürən maşını cəlb olunub və yanğın söndürülüb.

"Trend"in məlumatına görə, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov jurnalistlərə müsahibəsində bildirib ki,yataqxanada məskunlaşmış məcburi köçkünlərin evlə təminatı ilə bağlı suala cavab olaraq icra başçısı deyib ki, bundan öncə baş verən yanğından sonra da məcburu köçkünlər evlə təmin olunmuşdu. "Qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsi ilə müzakirələrdən sonra müvafiq addımlar atılacaq", — deyə X.İsgəndərov bildirib.



Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini Rza Xudiyev jurnalistlərə bildirib ki, yanğın zamanı binada yaşayan 30-a yaxın şəxs təxliyyə olunub, ikinci mərtəbədə 1 azyaşlı uşaq xilas olunub. O deyib ki, yanğın ilk olaraq pərakəndə ticarət bazarında baş verib. Bazar binaya bitişik olduğundan yanğın tezliklə binaya keçib. Yataqxanadakı yanğının geniş sahəyə yayılmasının əsas səbəbi binanın eyvanlarının bir-birinə taxta konstruksiyalarla bitişik olmasıdır. Yanğın zamanı bazar 450 kvadratmetr, binanın eyvanları isə 350 kvadratmetr sahədə yanıb. Rəis müavini bildirib ki, 5-ci mərtəbədə hər birinin sahəsi 15 kvadratmetr olan 4 mənzil, 3-cü mərtəbədə isə 1 mənzil yanıb. Eyvanları yanğına məruz qalmış bir neçə mənzilə də ziyan dəyib.

Yanğın 1 saat müddətində tam söndürülüb. Yanğının söndürülməsinə Binəqədi və Nərimanov rayon yanğından mühafizə qarnizonu cəlb olunub.

Yanğın hadisəsi ilə əlaqədar 6 nəfər təcili yardıma müraciət edib. Bu barədə APA-ya Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının operativ və hospital işlərinin təşkili şöbəsinin böyük həkimi Zemfira Vahidova bildirib. Onun sözlərinə görə, müraciətlər təzyiqin qalxması və əsəb gərginliyi ilə bağlı olub. Xəstələrə tibbi yardım göstərilib və onların vəziyyətləri yaxşılaşıb. Hadisə yerində 4 təcili yardım briqadasının fəaliyyət göstərdiyini bildirən Z. Vahidova bildirib ki, yanğın nəticəsində xəsarət alan və xəstəxanaya yerləşdirilən olmayıb.

# Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Tərtər rayonunun Nəmirli, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Qorqan və Horadiz kəndləri, Goranboy və Göygöl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

# Ermənistan ordusunda ciddi dəyişiklik

Ermənistan Müdafiə Nazirliyinin üç idarə rəisi vəzifəsindən azad edilib. Bu barədə APA "Aykakan Jamanak" qəzetinə istinadən yaydığı məlumata görə, işdən çıxarılanlardan ikisi general rütbəsi daşıyır. Müdafiə naziri Seyran Ohanyan Baş Qərargah rəisinin müavini, general-leytenant Valeri Qriqoryanı, Ermənistanın baş hərbi komissarı, general-mayor Sergey Çalyanı və Müdafiə Nazirliyinin təşkilat-səfərbərlik idarəsinin rəisi polkovnik Arakel Martikyanı vəzifəsindən azad edib. Onların işdən çıxarılmasının səbəbləri açıqlanmır.

# Erməni hüquq müdafiəçisindən Sarkisyana sərt sözlər

"SİZƏ YAZDIĞIM AÇIQ MƏKTUBU ÇOX HÖRMƏTLİ CƏNAB PREZİDENT SÖZLƏRİ İLƏ BAŞLAMAYACAĞAM. ÇÜNKİ SİZİN ERMƏNİSTAN CƏMİYYƏTİNDƏ AZACIQ DA OLSUN HÖRMƏTİNİZ QALMAYIB"

"Sizə yazdığım açıq məktubu çox hörmətli cənab prezident sözləri ilə başlamayacağam. Çünki sizin Ermənistan cəmiyyətində azacıq da olsun hörmətiniz qalmayıb". "Armenia to day" saytının verdiyi xəbərə görə bu sözlər Ermənistanın hüquq müdafiəçisi Vardan Aratunyanın prezident Serj Sarkisyana yazdığı açıq məktubunda yer alıb. Ermənistan Milli Konqres partiyasına üzv olan gənclərin siyasi baxışlarına görə həbs olunmaları ilə əlaqədar yazdığı açıq məktubda hüquq müdafiəçisi prezidentə sual verərək nə vaxta qədər Ermənistanda cinayətkar rejimin hakim olacağını soruşub.

Məktubda qeyd edilir ki, ölkə iqtisadiyyatı və bir qrup cinayətkar oliqarx-məmurun əlində cəmləşərək tamamilə dağıdılıb: "İnsanlar səfalət içində yaşayır. Bütün bunlar azmış kimi üstəlik gənclər siyasi düşüncələrinə görə təqib edilirlər. Siz bir prezident kimi tədbir görməkdə acizsiniz. İmkanlı oliqarxların əlində oyuncağa çevrilmisiniz. Nəticədə isə xalq mərhumiyyətlərlə üz-üzə qalıb".

Hüquq müdafiəçisi S.Sarkisyana müraciətlə yazır ki, 2008-ci ildə keçirilən prezident seçkilərində onun qələbəsi olduqca şübhəli idi: "Belə olmasaydı, sizin əmrinizlə ədalət tələb edən xalq meydanda güllələnib qətlə yetirilməzdi. Xalqı əzərək prezident oldunuz və hakimiyyətinizi davam etdirirsiniz. Sizin aqibətinizin necə olacağını demək çətindir. Hər halda yaxşı heç nə proqnozlaşdırmaq olmur. Nə qədər ki, gec deyil, iradəli olun və həbs olunmuş gəncləri azadlığa buraxın" (AzərTAc).

# Aydın Mirzəzadə: "Üzdə olan liderləri prezidentliyə namizəd olmağa layiq bilmirəm"

**Müsahibimiz millət vəkili, politoloq Aydın Mirzəzadədir.**

***— Aydın müəllim, maraqlıdır ki, hakimiyyətə opponentlik edən qüvvələr bir tərəfdən 2013-cü il seçkilərinə qeyri-rəsmi olsa da, hazırlıqlarına start veriblər, namizəd, vahid namizəd axtarışına çıxıblar, eyni zamanda, onlar bildirirlər ki, indiki şərtlər daxilində, yəni, seçki mühitinin demokratikləşdirilmədiyi, Seçki Məcəlləsinin, seçki komissiyalarının daha demokratik əsaslarda formalaşdırılmadığı bir şəraitdə seçkiyə getməyin mənası yoxdur. Bəs,siz hakim partiyadan olan millət vəkili kimi bu haqda nə düşünürsünüz?***

—Bilirsiniz, bu arqumentlər artıq illərdir təkrarlanır, o cümlədən, həmin arqumentlərə illərdir əsaslı cavab verilir və onlar da həmin cavabla razılaşmalı olurlar. Birincisi, seçki komissiyaları onların təklif etdiyi müxalifət və iqtidarın 50-50-yə variantı ilə təşkil edilmir. Ancaq sual olunur, kimin iqtidar, kimin müxalifət olduğunu kim müəyyənləşdirəcək? Sual olunur, əgər seçki prosesində həmin o müəyyən edilən qüvvələrdən biri öz mövqeyini dəyişəcəksə, onda məsələ nə cür həll olunacaq? Sual olunur, seçki keçirildi və komissiya üzvündən- ya iqtidar, ya müxalifət tərəfi seçkinin nəticələrini qəbul etmədi. Həmin halda hakimiyyət — icraedici və yaxud, qanunverici hakimiyyət nə cür formalaşacaq?

Göründüyü kimi, bu sualların heç birinə müxalifət cavab verə bilmir. Digər tərəfdən, belə bir təəssürat yaranır ki, Azərbaycan müxalifətini seçki keçirilməsi deyil, seçkidə onun qələbəsini təmin edilən mexanizminin olması maraqlandırır. Onlar ədalətli seçki deyil, məhz özlərinin hakimiyyətə gəlməsini təmin edən bir mexanizm tələb edirlər. Bu isə mümkün olna bir şey deyil. Seçki mühiti, seçki mexanizmi kiminsə hakimiyyətə gəlməsi üçün deyil, vətəndaşların ümumi rəyinin ortaya qoyulması üçündür. Bunu da hesab edirəm ki, Azərbaycan müxalifəti artıq müstəqilliyimizin 20-ci ilində bilməlidirlər.

***— Necə hesab edirsiniz, hakimiyyətin radikal, özlərinin isə milli-demokratik adlandırdığı qüvvələr bu seçkilərdə iştirak edəcəklərmi? Müxtəlif formatlarda, müxtəlif namizədlərlə seçkilərə gedəcəklər, yoxsa, yenə boykot məsələsi gündəmə gələcək?***

— Birmənalı şəkildə milli-demokratik qüvvələr seçkilərdə iştirak edəcəklər. Birmənalı şəkildə özlərini milli-demokratik adlandırıb, ancaq bu tələblərə heç də uğurla cavab verməyən qüvvələr yenə seçkiqabağı spekulyasiya edəcəklər. Bu, artıq illərdir ki, təkrarlanır. Çünki eyni siyasi oyunçular, eyni siyasi texnologiya, eyni siyasi ssenaridir. Özü də nəinki cəmiyyət, hətta, həmin bu cinahın elektoratı belə onların bu yanaşmasında artıq yorulub. Onların artıq siyasətdən getməsinin, yerlərini öz ideologiyalarının daşıyıcısı olan yenilərə, gənclərə verməsinin artıq vaxtı çoxdan çatıb. Ancaq yenidən və yenidən öz uğursuzluğuna möhür vurulmasına yorulmayan, təəssüf ki, siyasi qüvvələr, siyasi liderlər var.



***— Sizcə, bu radikal adlanan qüvvələrin vahid namizəd axtarışı necə nəticə verəcəkmi? Konkret bir namizədin üzərində dayanılacaq, yoxsa yenidən qüvvələr parçalanacaq?***

— İş burasındadır ki, vahid namizəd həmin cinaha o vaxtı sərf edir ki, kimsə məhz öz namizədliyini təbliğ edə bilsin. Bu gün radikal cinahda bir neçə lider var və həmin liderlərin hər biri vahid namizəd deyəndə, namizəd kimi yalnız özünü görür. Vaxtaşırı bu mövzunu öz elektoratına atırlar, özlərinin namizədliyinin dəstəklənmədiyini gördükdə geri çəkilirlər. Eyni insanlar, eyni texnologiya, eyni düşüncə olduğuna görə 2013-cü il prezident seçkilərində də eyni nəticəni görəcəyik.

Toplananların yerini dəyişəndə, riyaziyyatda bir düstur var, cəm dəyişmir. Yenidən onlar arasında separat danışıqlar, yenidən qısa müddətə sabun köpüyü kimi yaradılmış seçki blokları, yenidən qarşılıqlı ittihamlar və seçkidən sonra heç nə olmamış kimi əvvəlki ittihamları, təhqirləri, bir-birilərini aşağılayan fikirləri unudaraq yenidən, belə deyək ki, süni bir dostluq ittifaqlarının yaradılması özünü büruzə verəcək. Bunlar hamısı görüntülərdə olan məsələdir.

İş burasındadır ki, prezident və parlament seçkiləri iqtidarla müxalifət arasında keçirilmir. O, seçkidə iştirak etmək istəyən qüvvələr arasında keçirilir və bu gün Azərbaycanda demokratik fikirdə olan, öz mövqeyini bu və ya digər formada ortaya qoyan kifayət qədər qüvvələr və şəxslər var. Hər seçkidə də ilk növbədə onların fikirləri və ideologiyası arasında mübarizə gedir. Azərbaycanın radikal müxalifəti isə indiki dövrdən qat-qat geridə qalıb. Onlar hələ də 20 il bundan əvvəlin ab-havası ilə yaşayırlar.

Ümumilikdə müxalifətin bu seçkilərdə də qalib gəlməsi mümkün deyil. Çünki müxalifətin qalib gəlməsi üçün gərək iqtidar zəif işləyə, gərək iqtidar öz vəzifəsinin öhdəsindən gəlməyə, gərək cəmiyyətin böyük bir hissəsi bu iqtidardan narazı qala. Ancaq hansı halda narazı qala bilər ki, insanların problemləri həll edilir, insanların sosial vəziyyəti yaxşılaşdırılır, insanlar daxili və xarici siyasətin, onların maraqlarına uyğun olan siyasətin həyata keçirilməsini görürlər. Yəni, bu gün müxalifət liderləri düşünürsə ki, insanlar sadəcə, kiminsə bəlağətli ifadəsinə görə onları seçəcək, yanılırlar.

Hesab edirlərsə ki, bu gün iqtidarın milyonlarla tərəfdarları öz əqidəsini dəyişəcəklər, onlar yenə səhv edirlər. Bu gün iqtidar milyonlarla insanları öz ətrafında birləşdirən və effektli fəaliyyət göstərən bir qüvvədir. İqtidarın gücü insanların düşüncəsindədir, insanların onlara inamındadır, insanların onu müdafiə etməyindədir. Sadə vətəndaş problemlərinin həll edildiyini, bu gün təhlükəsiz və inkişaf edən ölkədə yaşadığını görəndə heç bir tərəddüd etmədən öz namizədini, öz iqtidarını müdafiə edəcək. Və bunu biz bugünkü Azərbaycanda görürük.

***— Hər halda mətbuatda gedən müzakirələrdən də bəllidir ki, hər zamankı kimi, daha çox dörd şəxs, siyasi lider — İsa Qəmbər, Əli Kərimli, Rəsul Quliyev və Lalə Şövkət vahid namizədliyə iddia edirlər. Qeyd edək ki, bir dəfə bununla bağlı qısaca olsa da, saytımıza fikirlərinizi açıqlamışdınız və fikirləriniz xüsusilə, əks cinahda kifayət qədər rezonans yaratmışdı. Ona görə bir daha bu məsələyə münasibətinizi öyrənmək istərdik ki, siz bu liderlərdən hansını digərlərinə nisbətən şanslı hesab edirsiniz və bunlardan hansı iqtidar namizədinə daha real alternativ ola bilər?***

— Açığını deyim, bunların heç birini bu gün hətta, öz cinahlarının liderləri və namizədi olmasına layiq bilmirəm. Axı, nəyə görə onlar liderlik, belə deyək, statusunu monopoliyaya çeviriblər? Ötən dəfə dediyim kimi, nəyə görə bu gün Müsavatdan Arif Hacılı, AXCP-dən Fuad Qəhrəmanlı, ALP-dən Əvəz Temirxan prezidentliyə namizəd olmasın? Nədən belə hesab edilir ki, ancaq sözügedən şəxslər müxalifətin liderləri və ya prezidentliyə namizədləri olmalıdır? Arif Hacılı, Fuad Qəhrəmanlı, Əvəz Temirxan həmin düşərgənin prezidentliyə namizədi ola bilməzlərmi?

Düzdür, demək olmaz ki, adını çəkdiyim şəxslər, necə deyərlər, namizəd olsalar, onlar hansısa uğur qazana biləcəklər, ancaq heç olmasa onların təmsil etdiyi cəbhə müəyyən qədər təmizlənə bilər. Müəyyən bir ab-hava, yeni bir fikir, yeni bir texnologiya gələ bilər. Məsələn, Şimali Koreyada dünyasını dəyişən liderin oğlu onun yerinə gəldi, onun davamçısı kimi olmasını iddiasını irəli sürdü. Amma bununla belə, o, Şimali Koreyaya bu gün müəyyən qədər yeniliklər gətirə bilib. Hesab edirəm ki, nəhayət, bizim radikal müxalifətə də müəyyən qədər yeniliklər gətirilməlidir. Müxalifət də yeni düşüncə ilə yaşamağı bacarmalıdır. Bu gün Azərbaycanın məsuliyyət yükünü öz çiynində daşımağı bacarmalıdır. Amma bunu isə biz hələ görə bilmirik.

**KAMİL**

# Nizami Cəfərov: "Dilşünaslar Birliyinin yaradılması zəruridir"

"Azərbaycanda iqtisadiyyat, ictimai-siyasi təfəkkür yüksəliş həddindədir. Bununla əlaqədar olaraq, Azərbaycan dilinin inkişafı məsələsi xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Daha doğrusu, dil məsələsi milli, ictimai təfəkkürün və düşüncənin inkişafı fonunda diqqətdən kənarda qala bilməz". Bu barədə Milli Məclisin Mədəniyyət komitəsinin sədri, akademik Nizami Cəfərov prezidentin imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamında Azərbaycan dilinin inkişafı üzrə dövlət proqramının hazırlanması ilə bağlı hökumətə verdiyi göstərişlərdən irəli gələn vəzifələrdən danışarkən deyib. O bildirib ki, dünyada müşahidə edilməkdə olan qloballaşma prosesi şəraitində dilin qorunması və inkişaf etdirilməsi probleminə 2 cür yanaşma mövcuddur: "Bu yanaşmalardan biri milli xüsusiyyətlərin, o cümlədən dilin qorunub saxlanmasından ibarətdir, ikinci yanaşma isə ölkənin və onun dilinin dünyaya açıq olması məsələsidir. Axı onu da nəzərə almaq lazımdır ki, qloballaşma prosesi nəticəsində dilin istifadə edilməsi ilə bağlı bir sıra problemlər yaranır. Bəzi dünya dilləri yox olur, bəziləri isə güclü xarici təsirə məruz qalır. Buna görə də, Azərbaycan dilinin qloballaşma dövründə qorunub saxlanması və inkişaf etdirilməsini vacib hesab edirəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan dili 50 milyondan artıq insanı bir-biri ilə birləşdirən bir atributdur. Buna görə də, bu amil dilin inkişaf etdirilməsi işi ilə bağlı istənilən qərarların qəbulunda nəzərə alınır və prezidentin sərəncamında öz əksini tapan müddəalar da bu tələblərə tamamilə cavab verir". N.Cəfərov deyib ki, prezidentin sərəncamında bir tərəfdən, dilin inkişaf tarixinin təhlili aparılır, digər tərəfdən isə dilin inkişafının perspektivi qeyd olunur: "Ümumilikdə, bu sərəncam



Azərbaycan dilinin və milli məfkurənin inkişaf etdirilməsində çox böyük xidmətlər göstərəcək. Bundan əlavə, dövlət başçısı sərəncamında reklam, televiziya, mətbuat və s. ilə bağlı məsələlərlə, təkliflərlə çıxış edir. Prezident həmçinin dilin inkişaf perspektivlərini də müəyyənləşdirir". Sərəncamda vahid tərcümə mərkəzinin yaradılmasının nəzərdə tutulmasına da toxunan komitə sədri deyib ki, tərcümə işi yaradıcı prosesdir və onunla hər kəs məşğul ola bilər: "Bununla yanaşı, tərcümə mərkəzinin də yaradılması vacibdir. Bununla belə, bu mərkəz daha çox tərcümə ilə yox, tərcümənin metodikası ilə məşğul olmalıdır. Daha doğrusu, bu mərkəz tərcümə edilmiş materiallara resenziya təqdim etməlidir.Tərcümə mərkəzinin yaradılması tərcümələrin mərkəziləşdirilməsi anlamına gəlmir. Çünki bu mərkəzdə lüğətlər hazırlanacaq, tərcümə üsulları tədqiq ediləcək. Eyni zamanda, mərkəz dövlət sifarişlərini yerinə yetirəcək". N.Cəfərov deyib ki, bizim dilşünaslar öz elmi işlərini müasir tələblərə uyğun əsaslandırmalıdırlar: "Bu məsələdə bir sıra problemlər var. Məsələn, Azərbaycan dilinin tam orfoepiya lüğəti yoxdur. Eyni zamanda, bir neçə il öncə yaradılan dil üzrə komissiya fəaliyyətsizdir. Dil birbaşa insan təfəkkürü və düşüncəsi ilə əlaqəlidir. Düşüncə bilavasitə ictimai həyatla bağlıdır. İnsanlar Azərbaycan cəmiyyətindəki inkişafı dünyanın digər ölkələrində baş verən proseslərlə müqayisə etməyə başlayırlar. Bu prosesdə müasir texnologiyalar istifadə olunur və buna görə Azərbaycan dilinin imkanlarının genişləndirilməsinə tələbat yaranır.Bu səbəbdən məmurlar və ictimai xadimlər, ümumilikdə bütün cəmiyyət dünya arenasında Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsi üçün çalışmalıdır. Əlbəttə ki, dili ilk növbədə məişət səviyyəsində, daha sonra isə təhsil sistemində qorumaq və inkişaf etdirmək lazımdır. Azərbaycanın dilinin televiziya, radio, mətbuatda istifadəsi səviyyəsinə toxunan alim deyib ki, Azərbaycan dili bu gün daha çox publisistika, mətbuat, televiziya və radio sahələrində inkişaf edir: "Lakin bu sahələrdə də bir sıra çatışmazlıqlar var. Məsələn, çatışmazlıqlar televiziya və radio diktor və aparıcılarının nitqlərində müşahidə olunur. Yəni, televiziya aparıcılarında peşəkarlıq səviyyəsi kifayət qədər deyil. Dilin düzgün və savadlı şəkildə istifadə olunması problemləri reklam sahəsində də var. Şübhəsiz ki, Azərbaycan dilindən istifadə zamanı bu kimi çatışmazlıqların qarşısını almaq lazımdır". Millət vəkili Dilşünaslar Birliyinin yaradılmasını zəruri hesab edir: "Çünki dilin inkişaf problemi təkcə elmi deyil, həm də ictimai bir vəzifədir. Dilin qorunması və inkişafı prosesinə ictimaiyyəti daha çox cəlb etmək lazımdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycanda bir neçə dil mərkəzi var. Ona görə, dilin tədqiqi, onun qorunması və inkişafı işi ilə bir çox alimlər məşğul olmalıdır. Ümumilikdə isə, bu proseslə cəmiyyətin bütün təbəqələri məşğul olmalıdı".

**PƏRVANƏ**

# Heydər Mirzə: "Ermənistan Yaxın Şərqdəki erməniləri daimi yaşamaq üçün cəlb etmək vasitələrə malik olsaydı, bunu çoxdan edərdi"

"Ermənistan hökumətinin Suriyadan və Livandan olan həmyerlilərinin Ermənistan vətəndaşlığını ala bilmələri üçün prosedurların sadələşdirilməsi haqqında qərarı daha çox ölkədə demoqrafik problemi həll etmək məqsədi daşıyır. Ermənistan hakimiyyət orqanları "dünya ermənilərinin ocağının qoruyucuları" qismində bu vəziyyətdən həmvətənlərinin iştirakı ilə istifadə etmək niyyətindədirlər". Belə bir açıqlama ilə Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin eksperti Heydər Mirzə çıxış edib. Ekspert deyib ki, bu məlumatla bağlı əsas mənbə Ermənistan KİV-ləridir: "Bu məsələ ilə bağlı məlumatlar orada elə formullarla yayılır ki, məlumatlardakı bu qarmaqarışıqlıq Ermənistana köçmək arzusunda olan Suriya ermənilərinin dəqiq sayını ifadə edən rəqəmi müəyyənləşdirməyə imkan vermir. Bundan əlavə, heç kim heç olmasa bircə dəfə tanışlıq məqsədilə də olsa səfər etmədiyi yerdə daimi yaşamaq barədə dərhal qərar vermir. Bu baxımdan, Hələb-İrəvan istiqamətində hal-hazırda erməni axınının olması ilə bağlı yayılan məlumatları da məhz bu nöqteyi-nəzərdən qiymətləndirmək lazımdır. Qısa və yaxın perspektivdə Ermənistan Suriya erməniləri üçün çox güman ki, ancaq müvəqqəti dayanacaq yeri ola bilər. Daha əvvəlki yazılarımda mən erməni diasporu nümayəndələrinin Ermənistana ilk dəfə gəldikləri zaman müşahidə etdikləri təzadlı hallar barədə qeydlərimi etmişəm". Rəsmi İrəvanın erməni mühacirləri işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirəcəyi ilə bağlı hər hansı təhlükənin mövcud olmasına gəlincə, H.Mirzə deyib ki, belə bir ehtimal var, lakin bu ancaq ehtimal olaraq qalır: "Bu ehtimal bir neçə səbəbdən təhlükə həddinə qədər yüksələ bilməz. Birincisi, işğal altında olan Qarabağın əhalisinin sosial-iqtisadi vəziyyəti hətta yoxsul Ermənistanla müqayisədə qat-qat pisdir. Suriya ilə müqayisədə Əsədin ən yaxşı vaxtlarında bu "soyuq duş" daşnaq-mühacir romantikası üçün belə, yolverilməz haldır. Əgər Ermənistan dövləti Ermənistana və Qarabağa Yaxın Şərq erməni icmasının əhalisinin daimi yaşamaq üçün cəlb edilməsi ilə bağlı hər hansı ağlabatan vasitələrə malik olsaydı, bunu çoxdan həyata keçirərdi". Ekspert deyib ki, Ermənistanın özündə əhalinin Rusiyaya axışıb-getdiyi bir halda suriyalı ermənilərin Qarabağa yerləşdirilməsi ilə bağlı hansı təhlükədən söhbət gedə bilər: " İkincisi, belə ki, işğal olunmuş Qarabağda kənd təsərrüfatı istisna olmaqla nəsə həyata keçirmək üçün əməli olaraq heç bir imkanın olmadığı bir şəraitdə Qarabağ ermənilərinin qonşuluqda Suriyadan gələn ermənilərin peyda olmasına reaksiyalarını özünüz təsəvvür edin. Bəli orada işverənin obyekti fəaliyyətə başlamazdan artıq altı ay əvvəldən potensial iş yerlərinə namizədlərin növbəsi yaranır. Düşünürəm ki, bu addımı atacaq suriyalı ermənilərin sayı 100-150 ailədən artıq olmaz". H.Mirzənin sözlərinə görə, ermənilərin Ermənistandan kütləvi miqrasiyası artıq regionda vəziyyətə təsir göstərməsə də, artıq 3-5 illik perspektivdə bu vəziyyətə təsir göstərən qüvvələr nisbətində öz əksini tapıb: "Naira Zoqrabyan gündəlik minimum uzun müddətə ölkəni tərk edənlərin sayını nə qədər demişdi 400 nəfər, hə? Həmin Qarabağın standartları ilə bu kiçik bir kəndin əhalisi deməkdir". Siyasi ekspert işğal probleminə də toxunub və bunun çox mürəkkəb olduğunu, müvafiq kompleks yanaşma tələb etdiyini vurğulayıb: "İşğal probleminin həlli üçün bizim bir qədər çox olmağımızın və daha yaxşı silahlanmağımızın kifayət etdiyini məndən eşitmək istəyirsinizsə bu yanlış olardı. Həm Azərbaycan, həm də Ermənistanın xeyrinə olan xeyli hərbi-siyasi amillər var və eyni zamanda bu amillərdən hər birinin də bir neçə şərti var. Odur ki, ilk növbədə bütün müqayisə spektrları üzrə yaxşı olmaq, sonra isə daha üstün olmaq lazımdır".

**PƏRVANƏ**

# 1 avqust- Azərbaycan əlifbası və Azərbaycan dili günüdür

Bütün millətlərdə olduğu kimi Azərbaycan xalqının da dili onun milli kimliyini müəyyənləşdirən ən önəmli faktorlardandır. Ölkəmizdə ana dilimizə xüsusi qayğı və diqqət mərhum liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra geniş vüsət alıb. XX əsrin ikinci yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi birbaşa ulu öndərin adıyla bağlıdır. Sovetlər dönəmində ölkədə milli dillərin sıxışdırılması siyasətinin yeridildiyi bir zamanda Heydər Əliyev ana dilinin — Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirirdi. Doğma dilimizdə dərsliklərin və kitabların nəşrinin genişləndirilməsi, dilçi alimlərə qayğı göstərilməsi belə tədbirlərdən idi. 1978-ci ildə o vaxtkı SSRİ rəhbərliyinin ciddi narazılıq və etirazına baxmayaraq, Heydər Əliyevin böyük qətiyyəti sayəsində Azərbaycan SSR Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edilib.

Konstitusiya ilə yanaşı, ulu öndərin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 18 iyun 2001-ci il tarixli 506 saylı fərman, "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" 4 iyul 2001-ci il tarixli, 76 nömrəli sərəncam, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli sərəncam və nəhayət, 2003-cü il yanvarın 2-də qüvvəyə minmiş "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanun ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını açıqlayan tarixi qanunvericilik aktlarıdır.

1 avqust — Azərbaycan əlifbası və Azərbaycan dili günüdür.

2001-ci il avqustun 1-dən olkəmizdə kirill qrafikasından latın qrafikasına keçilib. Bu tarix Ümummilli lider Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il qeyd olunur.

Dilimizin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yad təsirlərdən müdafiəsi istiqamətində aparılan işlər bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Prezident İlham Əliyev 2004-cü il, yanvarın 12-də sərəncam imzalayıb. Artıq kompüter proqramlarının ana dilimizə tərcüməsi prosesi də başa çatmaq üzrədir.

**S.MÜRVƏTQIZI**

# Bakı İstintaq Təcridxanasında monitorinq keçirildi

ATƏT-in Bakı ofisinin dəstəyi ilə "Konstitusiya" Araşdırmalar Fondunun həyata keçirdiyi "Saxlama yerlərinin monitorinqi — 2012" layihəsi çərçivəsində Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasında monitorinq həyata keçirilib. APA-nın məlumatına görə, monitorinqi "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, eksperti Elçin Salmanov aparıb. Monitorinq zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən müəssisənin yataqxanasına, cərimə təcridxanasına, karantin zonasına, görüş yerlərinə, sanitar-tibb hissəsinə, ərzaq anbarına və mətbəxə, yeməkxanaya, dini ibadət otağına baxış keçirilib.

Monitorinq zamanı bir sıra kameralara baxış keçirilib, 20-yə yaxın təqsirləndirilən şəxslə ( bunlardan 6-sı qadın) saxlanma vəziyyəti, tibbi xidmətlərə çıxış, qida təminatı və hüquq və azadlıqlaının təmin edilməsi ilə bağlı söhbət aparılıb. Söhbət zamanı onların saxlanma şəraiti, təklif və iradları ilə bağlı müzakirələr gedib. Təqsirləndirilən şəxslar birmənalı şəkildə müəssisədəki şərait, qidalanma, tibbi xidmət və saîrdən razı olduqlarını bildirdilər.

Eyni zamanda təcridxanada təşkil edilmiş məhkəmə prosesində də iştirak edildi. Məhkəmə hakim Anar Qasımovun sədrliyi ilə baş tutdu. Ittiham tərəfini cənab Səfərov təmsil edirdi. Məhkəmə vaxtından əvvəl şərti azad etmə və cəzanın daha yüngül cəza növü ilə dəyişdirilməsi üçün müraciət etmiş 8 nəfərdən 6-nı təmin etdi.

# "Həmkarlar İttifaqları və gənclərin məşğulluğu: qlobal çağırışlar və yeni yanaşma" müzakirə olunub

Bakıda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası Pan-Avropa Regional Şurasının (PARŞ) birgə təşkilatçılığı ilə "Həmkarlar İttifaqları və gənclərin məşğulluğu: qlobal çağırışlar və yeni yanaşma" mövzusunda beynəlxalq subregional konfrans keçirilib. İkigünlük konfransda Beynəlxalq Əmək Təşkilatı (BƏT) Əməkçilərin Fəaliyyətləri Bürosunun baş iqtisadçısı Məhəmməd Mvamodzinqo, təşkilatın baş mütəxəssisi Sergius Qlavaskas, PARŞ-ın eksperti Anton Leppik və Gənclər Şurasının sədri Tuğba Balçı ilə yanaşı, Türkiyə, Rusiya, Ukrayna, Macarıstan və digər ölkələrdə fəaliyyət göstərən milli həmkarlar ittifaqlarının 15 gənc lideri iştirak etmişlər.

Tədbiri açan AHİK-in sədri, millət vəkili Səttar Mehbalıyev konfransın əhəmiyyətini vurğulamış, dünyada gənclərin işsizlik səviyyəsi haqqında məlumat verib: "Bir çox ölkələrdə gənclər arasında işsizlik yaşlılara nisbətən iki-üç dəfə çoxdur və bəzi MDB ölkələrində işsizlərin ümumi sayının 40 faizini gənclər təşkil edir. Gənclər adətən qeyri-sabit, qeyri-formal, müvəqqəti, az maaşlı və sosial müdafiə təminatı aşağı olan işlərdə çalışırlar". Azərbaycanda gənclərin məşğulluğu sahəsində görülən işlərdən danışan S.Mehbalıyev Azərbaycan gənclərin məşğulluq şəbəkəsinə daxil olan qabaqcıl ölkələr sırasında olduğunu qeyd edib.

AHİK-in sədri gənclərin məşğulluq vəziyyətinin təhlili, eləcə də gənclərin məşğulluğunun dəstəklənməsi üzrə Milli Fəaliyyət Planında gənclər arasında işsizliyin azaldılması, onların fəaliyyətinin dəstəklənməsi və peşəyönümlü təlimlərin keçirilməsi əsas prioritet təşkil etdiyinin önə çəkib: "Azərbaycanda gənclərin sayı sürətlə artır. Əhalinin 35 faizi 16-35 yaş arası gənclərdir və iqtisadi fəal əhalinin 27 faizini, məşğul əhalinin isə 25,5 faizini təşkil edir".

S.Mehbalıyev respublikamızda gənclər arasında işsizlik məsələsinə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin də təsir etdiyini vurğulayaraq bildirib ki, bu işğal nəticəsində Azərbaycan ərazisinin 20 faizindən və 300 min iş yerindən məhrum olub. Ölkə rəhbərliyinin bu məsələyə diqqət yetirdiyini nəzərə çatdıran AHİK-in sədri son səkkiz ildə Azərbaycanda 1 milyondan çox iş yerinin açıldığını, "Gənclər siyasəti haqqında" Qanunun qəbul edildiyini və gənclərlə bağlı Fəaliyyət Planının həyata keçirildiyini diqqətə çatdırıb.

Sonra konfransın məqsəd və vəzifələri haqqında PARŞ-ın Gənclər Şurasının sədri T.Balçı və PARŞ-ın eksperti A.Leppik məlumat veriblər. Daha sonra konfrans işini dəyirmi masalarla davam etdirib. Konfransda "Gənclərin məşğulluğuna dair qlobal çağırışlar və həmkarlar ittifaqlarının yanaşması", "Milli çağırış və yanaşmalar", "Kommunikasiyaya dair strategiya və bərpa olunmanın konsepsiyası" mövzularında məruzələr dinlənilib, səmərəli təkliflər irəli sürülüb.

**S.MÜRVƏTQIZI**

# "Qarabağ" siyasi partiyalar birliyi seçki blokuna çevriləcək

"Qarabağ" siyasi partiyalar birliyi 2013-cü ildə seçki bloku kimi fəaliyyət göstərəcək". Bunu APA-ya Ümid Partiyasının sədri İqbal Ağazadə bildirib. Partiya sədri bildirib ki, "Qarabağ" seçki bloku 2010-cu ildə siyasi birliyə çevrilib və bu qurumun 2013-cü ildə yenidən seçki blokuna çevrilməsi mümkündür: "Əslində bunun ehtimalı çox böyükdür. "Qarabağ" siyasi birliyi ölkədə fəaliyyət göstərən ən uzunömürlü blokdur. Hazırda ADP ilə Ümid Partiyası arasında münasibətlər isti və səmimidir. Münasibətlərin bu səviyyədə olması bizə birliyin seçki blokuna çevrilməsi ilə bağlı ümid verir".

İ. Ağazadə birliyin genişlənməsi məsələsi haqda da danışıb: "Siyasi birlik seçki blokuna çevriləcəyi təqdirdə qurumun formatının genişləndirməsi — yeni üzvlərin cəlb olunması məqsədilə danışıqlara başlanmasına dair qərar veriləcək".

Partiya sədri müxalifət düşərgəsində mövcud olan birliklərin də qatılacağı daha geniş tərkibli ittifaqın formalaşmasına dair təklifə də münasibətini bildirib: "Buna doğru ciddi bir addım atılmayıb. Bu təşəbbüslər 2010-cu, 2011-ci ildə də olub. İndi açıqlanan təşəbbüsü də növbəti hesab etmək olar. Bu təşəbbüslərin nə dərəcədə uğurlu olacağını zaman göstərəcək. Hər halda belə təkliflər həmişə olub. Hədəfləri bəlli olmayan, ümumi şüarlar altında olan qurumda isə "Qarabağ" bloku iştirak etməyəcək".

# Şimali Kiprin Azərbaycan nümayəndəliyinə yeni rəhbər təyin olundu

## DİPLOMATİK MİSSİYANIN HAZIRKİ RƏHBƏRİ ZƏKİ QAZİOĞLU BUNDAN SONRA ŞKTC XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ÇALIŞACAQ

Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC)Azərbaycan nümayəndəliyinin rəhbəri Zəki Qazioğlunun diplomatik missiyası başa çatır. Z. Qazioğlu APA-ya verdiyi açıqlamada sentyabrda Azərbaycandan gedəcəyini bildirib: "Burada 2006-cı ildən fəaliyyət göstərirəm. Keçən ilin sentyabr ayında fəaliyyət müddətim başa çatdı. Lakin öz istəyimlə bu müddət bir il də uzadıldı, yəni diplomatlar üçün nəzərdə tutulmuş maksimum müddət oldu. Bu ilin sentyabrında altı il tamam olur və mən sevdiyim qardaş Azərbaycandan gedirəm". Z. Qazioğlu onu ŞKTC-nin Azərbaycan nümayəndəliyinin rəhbəri vəzifəsində əvəzləyəcəyi şəxsin adının məlum olduğunu da söyləyib: "Bu vəzifəyə Sadəddin Topukçu gələcək. Mən isə Xarici İşlər Nazirliyində çalışacağam".

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Plüralizm və müasir media: reallıqlara və perspektivlərə baxış

## PROFESSOR CAHANGİR MƏMMƏDLİ İLƏ SÖHBƏT

*Sevinc MÜRVƏTQIZI*

*(Əvvəli ötən saylarımızda)*

***— Mətbuat, məmurlar və cəmiyyət arasında münasibətləri normallaşdırmaq yönündəki cəhdlərə baxmayaraq, hələ də qəzetlərə, jurnalistlərə qarşı məhkəmə iddiaları qaldırılır, fantastik məbləğdə cərimələr kəsilir.***

— Əslində, buna görə diffamasiya haqqında qanun qəbul olunsa yaxşıdır ki, hər kəs yerini bilsin. Həm jurnalist bilsin ki, o, çox ciddi cərimələnə bilər. Həm də məmur bilsin ki, bundan ötrü adamı həbs etməyəcəklər. Azərbaycanda qanunvericilik bazası əsasında çox ciddi mətbuat və söz azadlığı var. Qanunvericilik bunu təsbit edir. Amma mən bütün məsuliyyətimlə deyirəm ki, bəzi qəzetlərimiz, jurnalistlərimiz bundan sui-istifadə edirlər. Məmurların məhkəmələrə üz tutmasına gəlincə bu, çox ciddi böhtan və təhqirdən irəli gəlir. Düzdür, Azərbaycan məmuru ideal adam deyil, onun min bir nöqsanı var. Amma bütün bunları təhqir, böhtan və şantajla gündəmə gətirmək olmaz. Belə olanda onlar məhkəmə proseslərinə müraciət etməli olurlar. Mən şahidi olmuşam, jurnalistlərə qarşı məhkəmələrdə elə iddialar qaldırılıb ki, o iddianın arxasından qaçmaq olmur. Amma o iddiaların qaldırılmasında jurnalistlərin günahı çoxdur. Çünki elə şər atırlar ki, sonra sübut edə bilmirlər. O ki qaldı cərimələrin fantastik olmasına, bu, çox yaxşıdır. Çünki fantastik olanda jurnalist o cəriməni ödəmir və Azərbaycan məmuru da çox vaxt bunu bağışlayır. Azərbaycanda məmur-jurnalist çəkişmələrində qəribə bir konsensus var. Məmur yüksək məbləğdə cərimə tələb eləyir, jurnalist də onu ödəyə bilmir. Bir az vaxt keçir. Jurnalist geri çəkilir, məmur da bağışlayır. Heç məlum olmur ki, bu fantastik cəriməni necə ödəmək olardı.

***— Buradan belə bir sual yaranır, bir halda ki, məmur jurnalisti əvvəl-axır bağışlayacaq, onda bütün bu məhkəmə prosesləri nəyə lazımdır?***

— O proseslər də olmasa, bəzi jurnalistlər daha kəskin işlər görərlər, hədlərini aşarlar, onsuz da aşırlar. Yenə deyirəm, Azərbaycan məmurunun günahı çoxdur, şəxsən mən də Azərbaycan məmurunun işlərindən o qədər də razı deyiləm. Elə məmur balaları var ki, avtomobilin sükanı arxasında dünyanı vecinə almır. Mən o məmurun yerinə olsam, xəcalət hissindən gedib özümü asaram. Jurnalistlər belələrini tənqid etməlidirlər. Fakt dəqiq olanda və qərəzsiz ifadə olunanda heç kəs ondan narazı qalmır. Amma jurnalistlər arasında qərəzliləri də var. Hakimiyyətdən narahat elektorata ünvanlanan mətbuat orqanları bu sahədə daha irəlidədirlər. Ancaq elə mətbuat orqanları da var ki, həqiqəti yazırlar. Hətta mən özüm də məmurların bəzilərinin gizlətmək istədiyi informasiyanı adi oxucu kimi belə mətbuat orqanlarından alıram. Amma məmur haqqında informasiyanı da elə şəkildə demək lazımdır ki, dəqiq olsun və qərəzlilik hiss olunmasın. Hakimiyyətdən narazı elektorata ünvanlanan mətbuat orqanları oxucu auditoriyasını genişləndirmək, qəzetin satışına nail olmaq üçün sensasion məlumatlara əl atırlar. Amma onu da deyim ki, Azərbaycan oxucusu artıq o cür sensasiyalara öyrəşib. Dünyada ən pis şey oxucunun nəyəsə öyrəşməyidir. Azərbaycan jurnalistikasında ən çox təəssüf elədiyim məqam müstəqil mətbuatın oxucusunun az olmasıdır. Bunu etiraf eləmək lazımdır. Çünki orada şər, böhtan, təhqir yoxdur. Amma həm iqtidar yönümlü, həm müxalif qəzetlərdə təhqir, böhtan elementləri az ya çox var. Ona görə də mən həm nəzəriyyəçi, həm də oxucu kimi də narazıyam. Azərbaycan mətbuatı bütövlükdə müstəqilləşməlidir. Bunun ayrı yolu yoxdur. Bircə partiya mətbuatına söz deyə bilmərik. Çünki dünyanın bir çox aparıcı ölkələrində partiya qəzetləri var. Onlar mənsub olduqları partiyanın ideologiyasını həyata keçirir. Amma partiya qəzetləri də yalan məlumat yaysa, təhqir etsə, böhtan atsa onun da ünvanına öz iradlarımızı bildirməliyik. Amma mətbuatımızda bu gün elə qəzetlər var ki, hansısa partiyaya xidmət edir, amma bunu etiraf eləmək istəmir. Onda oxucu çaşıb qalır ki, bu hansı partiyaya xidmət eləyir. Hakimiyyətdən narazı qəzetlərə alıb baxan kimi onların bircə nömrəsindən hansı partiyaya mənsub olduğunu, qulluq elədiyini təyin eləmək olur. Yaxşı olardı ki, onlar elə əvvəldən deyəydilər ki, hansı partiyanın orqanıdırlar. Çünki cidanı çuvalda gizlətmək olmur, bu onsuz da gec-tez bilinir.



***— Fikir və söz azadlığından danışanda bir problemli məqam da bəzi məmurların informasiya verməkdən boyun qaçırmasıdır. Hansı məmurlar və niyə informasiya vermirlər?***

— Bunu bir neçə aspektdən izah eləmək olar. İstəyirəm belə məmurları yola gətirək, bir az savadlansınlar. Məmur informasiya verməkdən boyun qaçırırsa, deməli onun normal informasiya verməyə filoloji savadı çatmır. Kim jurnalistdən qaçırsa, onun nitqi zəifdir, fikrini formalaşdıra bilmir. Gəlin bu məqamdan yapışaq ki, bəlkə bir az bunları insafa gətirək. İkincisi, məmur özündən yuxarıdakı məmurdan çox ehtiyat eləyir, birdən ağzından elə bir söz çıxar ki, başına iş açar. Belə şeylər olur da. Doğrudan da bəzən məmur ağzından hansısa bir sözü buraxır. Jurnalistlər də sensasiya üçün həmin sözü manşetə çıxarırlar. Aləm qarışır bir-birinə. Halbuki o səmimi şəkildə deyilmiş bir söz də ola bilər. Amma jurnalistlər tez onu sensasiyalaşdırırlar. Məmur bundan ehtiyat edir. Yəni aşağı ranqlı məmur yuxarı ranqlı məmurundan ehtiyat eləyir. Azərbaycanda mətbuat xidmətləri var. Onların çox az hissəsi müstəqil şəkildə öz idarəsini, xidmət elədiyi qurumu çox nadir halda müstəqil şəkildə təmsil edir. Ona görə də Azərbaycan jurnalisti daha çox birbaşa yuxarı ranqlı məmurun özü ilə, informasiyanın mənbəyinin obyekti ilə görüşmək istəyir. Mən bunu da bəyənmirəm. Qərb ölkələrində mətbuat xidməti, yaxud nazirin nümayəndəsi məlumatı elə verir ki, nazirin özü ilə görüşməyə ehtiyac qalmır. Gəlin etiraf eləyək ki, bəzən bizim jurnalistlər nazirlərlə, yaxud yuxarı ranqlı məmurla görüşməkdə bir məqsəd də güdür. Buna görə də bəzən nazirlər, ciddi idarə rəisləri jurnalistlə görüşməkdən ehtiyat edirlər ki, müsahibədən sonra jurnalistin hansısa təmənnası ola bilər. Lap heç mən buna reket jurnalistikası demirəm, amma hər halda təmənnalı jurnalistlər də var. Amma bütün bunların heç biri məmurun jurnalistə informasiya verməkdən imtinasına əsas vermir və ona bəraət qazandırmır. Qanunda da təsbit olunub ki, məmurun jurnalistə informasiya vermək borcu var. Yeri gələndə bundan istifadə edə bilərik və edənlər də var. Məmurdan informasiya almağın da bir çox üsulları var. “Yorma” üsulu çox əlverişlidir. Naziri kabinetində tuta bilmirsənsə, yumşaq desək, nazir səndən qaçırsa, katibəsi min bir bəhanə gətirirsə, ongünlərlə jurnalistləri ləngidirsə və o informasiya artıq gecikirsə, onu kabinetinin qabağında, çöldə gözləmək olar. Mən görmüşəm, elə məmurlar olub ki, bizim jurnalistlər onu qovub-qovub, axır ki, əlverişli məqamda tutaraq istədiklər informasiyanı alıblar. Ən yaxşı yer prezidenti xaricə səfərə yola salanda məmura yaxınlaşmaqdır. Onlar bilirlər ki, Azərbaycan prezidentinin informasiya verməyən məmurdan xoşu gəlmir və onu danlaya bilər. Ona görə də jurnalistlər bu məqamdan istifadə edə bilərlər və edirlər. Amma necə olur-olsun, nə olur —olsun, jurnalist informasiyanı almalıdır. Yeri gəlmişkən, bir haşiyə çıxım: Təhsil naziri Misir Mərdanov riyaziyyatçı olmasına baxmayaraq, heç vaxt jurnalistlərin suallarından qaçmır. Onun o qədər gözəl nitqi var ki, mətbuatdan qətiyyən çəkinmir. Allah eləsin ki, nazirlərimiz içərisində belələri çox olsun.



***— Jurnalistin informasiya əldə etməklə bağlı problemi bəzən də məlumatın mənbəyi ilə bağlı olur...***

— Şayiə şəklində gələn, gizli mənbədən əldə olunan, yaxud hansısa “newsmaker”in hazırladığı informasiyanı jurnalist mütləq leqallaşdırmalıdır. Düzdür, qanunda əksini tapıb ki, jurnalist konfidensial mənbəni məhkəmənin qərarı istisna olmaqla, açmaya bilər. Amma həmişə gizli mənbədən informasiyalar verilsə, qəzet özü gizli bir mənbəyə çevrilir. Bu qəzeti hörmətdən salır. Dünyanın məşhur super qəzetlərindən, transnasional nəşrlərdən öyrənmək lazımdır. Onlar heç vaxt informasiyanı mənbəsiz vermirlər. Demirəm, biz transnasional qəzetlər sisteminə gedib çıxaq. Amma biz də öz çəkimizdə mümkün qədər informasiyanın mənbəyini verməliyik.

**(Ardı var)**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Geriyə bax, dost!

Bilirəm yazımın başlığı ünlü yazıçımız İ. Əfəndiyevin məşhur əsərinin adını yada salır. Sadəcə, oradakı “qoca” sözünü “dost”la əvəzləmişəm. Fikirləşdim ki, mətbuatımızın cəfakeş veteranı, ağsaqqalı mənasında nəzərdə tutulsa da, bu “qoca” sözü Telman Qarayevin xoşuna gəlməyəcək. Ümumiyyətlə, bu insanın qiymətləndirmə ölçüləri, meyarı çox sərtdir. Hər şeyi bəyənən deyil, xüsusilə də yaradıcılıqda, jurnalistika sahəsində. Birinci növbədə də özünə qarşı belə “zalım” olub. Məlum məsələdir ki, yaradıcılıq işi normallaşdırılmayan, vaxt- vədə çərçivəsinə sığmayan, necə deyərlər, səllimi bir fəaliyyət sahəsidir. Adlı- sanlı qələm sahibi, respublikanın əməkdar jurnalisti Telman Qarayev üçünsə, bu fəaliyyət mübaliğəsiz- filansız günün 24 saatını əhatə eləyib. Odur ki, bu mətbuat fədaisi təkcə çoxlarında olmayan istedadı ilə seçilməyib, həm də çoxlarında çatışmayan enerjisi, məsuliyyəti, qəzetçiliyin, efirin və ekranın fəhləliyi üçün əldən- ayaqdan getməsi ilə tanınıb. Bəli, o Azərbaycan televiziyasında, eləcə də radiosunda baş redaktor işləyib, başqa vəzifələrdə çalışıb. Amma heç vaxt ənənəvi iş rejimindən və obrazından çıxmayıb. Onu nə vaxt, harada axtarıblarsa, montaj otaqlarında, səsyazma studiyasında, mikrofon önündə, ya da tozlu lentlərin arasında tapıblar. Neçə illər qabaq radioda canlı yayıma start verilirdi. Bir qurum yaratmaq lazım idi ki, bu məsuliyyətli prosesə səmərəli nəzarət eləsin. Qonorarın, muzdun olmaması öz yerində, bu işin altına girən kəs əlavə nə qədər vaxtının itirilməsi, çoxlu əziyyət çəkəcəyi ilə də razılaşmalıydı. Telman Qarayev təkbaşına bütün ağırlığı üzərinə götürdü. Belə məqamlarda ona gülənlər də olurdu, “fanatik” deyənlər də. Amma bu ikincilər tamamilə haqlıydılar. Telman müəllim həqiqətən həmişə efirin əsiri- yesiri, dəli- divanəsi olub. Son zamanlar gözlərinin biri xeyli zəifləmişdi, ağrılar da vardı. Həkimlər deyirdilər ki, tezliklə müalicə olunmasa, tutulacaq və az vaxtda o biri göz də sıradan çıxacaq. Bütün tənələrə, təkidlərə baxmayaraq onu qısa müddətə də olsa, efirdən aralamaq mümkün olmadı. Müxtəlif bəhanələrlə günü- günə satırdı.Əslində isə neçə illər ərzində dişlə- dırnaqla yerinə oturtduğu, böyük dinləyici auditoriyası qazandırdığı verilişlərin səviyyəsinin aşağı düşəcəyindən qorxurdu. Başçılıq elədiyi redaksiyanın əməkdaşlarında cavanları, təcrübəsizləri vardı. İşi yarıtmayacaqlarından ehtiyatlanırdı. Beləcə, gözündən keçdi, adından, nüfuzundan, həyatının mənasına çevrilən efirin mənafeyindən keçmədi.

Telman Qarayev SSRİ dönəmində uzaq Şərqdən, Vladivastokdan üzü bəri ən çox ezamiyyətlərdə olan jurnalist, radio işçisidir. İgid Azərbaycan oğlu Tofiq Abbasovun sorağı ilə Damansk adasına gedib çıxmışdı. Baykal- Amur magistralına yollanan həmvətənlərimizin işi- gücü, güzəranı ilə yerində tanış olmaq istəyi ilə ağır səsyazan aparat çiynində Sibiri dolaşmışdı. Onun qiymətli səs arxivinə baxanda çox mətləblər aydın olur. Burada Ü. Hacıbəyli, T. Xrennikov, D. Şostakoviç, Q. Qarayev, F. Əmirov, Niyazi, R. Behbudov, M. Maqomayev, L. Zıkina, R. Pauls, V. Kikabidze kimi korifeylərin, məşhur insanların səsini- müsahibəsini, xalq üçün gərəkli sadə adamların, əsgərlərin, döyüşçülərin ürək çırpıntılarını görərsən, amma bir zamanlar dəbdə olan kolxoz sədrlərinin, sovxoz direktorlarının, hansısa təsadüfi idarə müdirinin çıxışına rast gəlməzsən.

O, heç vaxt, heç yerdə, heç şəraitdə öz əqidəsinə, yaradıcılıq prinsiplərinə zidd getməyib. Ürəyinə, ruhuna yatmayan mövzulardan kənar dolanıb. Müharibə gedən vaxt radiodan böyük bir yaradıcı qrup cəbhə bölgəsinə ezam olunmuşdu. Qrupda incəsənət ustaları da vardı. İlk görüşümüz hərbi hissədə baş tutdu. Konsertlə gecəyə qədər davam elədi. Axşam rayon rəhbərliyi təklifini bildirdi ki, bütün təşkilatların fəaliyyətini əks elətdirən radio verilişləri hazırlansın, heç kəsin əməyi diqqətdən kənarda qalmasın. Bölgü aparıldı, jurnalistlərdən biri tikinti idarəsindən, digəri emal müəssisəsindən, başqası polisdən və s. yazmaq istədiklərini bildirdilər. Növbə Telman Qarayevə çatdı. “Gündüzkü görüşdə bir iki əsgər qaralamışam”- dedi. “Yaxşı səsi olanı, kamança çalanı, başqa istedad sahibi var. Deyirlər hələ bu cür neçəsi də səngərdə, postdadı. Onları bir yerə yığıb bir veriliş eləyəcəm”. Elədi də. Həmin döyüşçülərdən sağ qalanlar sonralar da Telman müəllimlə əlaqə saxlayırdılar, indi də ünsiyyətləri var. Başqa misal. Məktublar şöbəsi bizim redaksiyaya tabe idi. Çoxlu şikayətlər də alırdıq. Və bunları aidiyyəti üzrə cavabdeh yuxarı təşkilatlara göndərirdik. Biləsuvardan bir ana dönə- dönə yazırdı ki, polis onun oğlunun ölümü ilə bağlı işi düzgün araşdırmır. Rayon prokuroru hər ikimizin tanışı idi. Telman müəllim təklif elədi ki, gəl gedək, bəlkə yazıq qadına bir köməyimiz dəydi. Rayona çatanda gördüm ki, ayağını sürüyür, “bilirsən ki, o qapılar mənlik deyil”- dedi. “Tanışımızdan mənim də adımdan xahiş elə, bu işi bir daha nəzarətə götürsün, qoy o qadın da bilsin ki, biz laqeyd qalmamışıq. Mən də gedim uşaq incəsənət məktəbinə, görüm yerli istedadlardan nə yaza bilirəm.”

Gözəl atalar sözü var “İgid odur atdan düşə, atlana”. Telman Qarayev də bir jurnalist kimi həmişə süvar olub. 20 Yanvar gecəsi hamı başını itirib neylədiyini bilməyəndə o gülləboranı, qışqırtıları, insanların etiraz səslərini diktafona yazmış, gecənin bütün mənzərəsini lentə almış, səhərisi hazır verilişlə işə gəlmişdi. O vaxtdan həmin proqram 20 Yanvarla bağlı material hazırlayanlar üçün bir istinadgah, qiymətli mənbədir və “ qızıl fondda” saxlanılır. Ümumiyyətlə isə, bu əvəzsiz səs saxlancında onun saya gəlməyən verilişləri qorunur ki, hər biri öz məzmunu, dəyəri ilə əvəzsizdir və bunları vaxtaşırı efirdən dinləyirik. Dünya işığından məhrum olması da Telman müəllimin qələmini əlində ala bilməyib. Yaradıcılığının formasını dəyişib. Bəlkə bu da taleyin məsləhətidir ki, daim irəli baxan, yeni planlarla nəfəs alan bu insan, nəhayət, bir qədər geriyə boylansın, 50 ildən artıq bir dövrdə yazdıqlarını sistemləşdirsin, arxivinin qaranlığından çıxarıb toplu halında ictimaiyyətin ixtiyarına versin. Telman Qarayevin son illərdəki heç nə ilə ölçülə bilməyən zəhməti, inadkarlığı nəticəsində üç böyük sanballı kitab ərsəyə gəlib və biri ötən il işıq üzü görərək rəğbət və məhəbbətlə qarşılanıb. O biriləri də çap ərəfəsindədir.



Avqustun 2-i ustad qələm sahibinin ad günüdür. Bu ərəfədə xatırlamalar, təbriklər, ünvanına deyilən xoş ürək sözləri çox olacaq. Özü həmişə belə tədbirlərin önündə gedib. İnsanların dəyərini, xidmətini cəmiyyətə tanıdıb, könlünü şad eləyib. İndi isə bunları qəbul eləməyə alışmaq lazımdır. Ən azı ona görə ki, bu onun halal haqqıdır.

**Bəxtiyar BƏXTİYAROV**

## ELAN

Ukrayna Respublikası Elm, Təhsil, Mədəniyyət və Turizm nazirliyi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elm, Mədəniyyət, İdman Mərkəzi, Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı).

Ukrayna, Rusiya dövlət universitetlərində, Vrotslav (Polşa) Dövlət universitetində təhsil almağa dəvət edir (bakalavr, mütəxəssis, magistr, aspirant).

1. T. Şevçenko adına Milli dövlət universiteti (“Milli” statusu universitetlərə ölkə prezidentinin fərmanı ilə verilir).
2. Ukrayna Milli Texniki universiteti.
3. Ukrayna Milli Aviasiya universiteti.
4. Ukrayna Milli Linqvistika universiteti.
5. Ukrayna Milli Memarlıq və İnşaat universiteti.
6. Kiyev Milli Tibb universiteti (Boqomolts adına).
7. Kiyev Dövlət Nəqliyyat universiteti.
8. Kiyev Dövlət Ticarət-İqtisadiyyat universiteti.
9. Bütün Ukrayna vilayət mərkəzlərinin dövlət universitetləri (Odessa, Donetsk, Xarkov, Poltava, Simferopol, Jitomir, Vinnitsa, Lvov, Çerkassı, Dnepropetrovsk və s.).

1. Moskva Memarlıq və İnşaat universiteti.
2. Plexanov adına İqtisadiyyat universiteti.
3. Moskva Tibb universiteti.
4. Moskva Mühəndis-fizika universiteti.
5. Dağıstan Dövlət universiteti.
6. Rusiya Prezidenti yanında dövlət qulluqçuları akademiyası.

1. Vrotslav (Polşa) Dövlət universiteti (universitet təhsili bitirənlərə Polşa, Fransa (ikili) diplomunu və İngiltərə Krallığı Logistika (iqtisadiyyat) və Nəqliyyat institutunun sertifikatını verir).

**İxtisaslar:**

Bütün humanitar, Tibb, İqtisadiyyat, Texniki və başqa ixtisaslar təklif olunur. İxtisaslarla bağlı suallara Xəzər universiteti, Karyera Mərkəzində cavab almaq olar.

Respublikamızdan xaricdə alınan təhsil Beynəlxalq Təhsil və Elm Mərkəzinin (Bakı) universitetlərlə bağladığı Müqavilələr əsasında aparılır. Bu Müqavilələrə əsasən Mərkəzin vasitəçiliyi ilə universitetlərə qəbul olunanlar təhsil müddətində Mərkəzin diqqət mərkəzində saxlanılacaq.

**Ünvan və əlaqə telefonları:**

**1. 8-ci km. qəsəbəsi, Məhsəti küçəsi 11, Xəzər universiteti, Karyera mərkəzi,**

**Sənədlərin qəbulu — Əlövsət müəllim, telefon: 050-321-31-69.**

**2. Tel: (012) 429-66-54, 050-398-32-68, 055-466-26-68.**

**3. Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, “Modern” tədris mərkəzi, tel:(012) 511-93-74**

**Adil İsgəndərov adına Mədəniyyət sarayı, tel: (012) 429-86-25 (Bədii rəhbər)**

# Kapello Aleksandr Səmədovu Rusiya millisinə çağırdı

DÇ-2014-ün seçmə mərhələsində millimizlə birgə F qrupunda mübarizə aparacaq Rusiya yığması avqustun 15-də Moskvadakı “Lokomotiv” stadionunda Kot d’İvuar millisi ilə yoldaşlıq görüşü keçirəcək.

Qol.Az-ın AFFA-nın rəsmi saytına istinadən verdiyi məlumata görə, Rusiya yığmasının qeyd olunmuş oyun üçün açıqlanmış heyəti aşağıdakı kimidir:

Qapıçılar: İqor Akinfeyev (SSKA), Vyaçeslav Malafeyev (Zenit), Anton Şunin (Dinamo).

Müdafiəçilər: Aleksandr Anyukov (Zenit), Aleksey Berezutski, Vasili Berezutski, Sergey İqnaşeviç, Georgi Şennikov (hamısı — SSKA), Taras Burlak, Andrey Yeşenko, Roman Şişkin (hamısı — Lokomotiv), Vladimir Qranat (Dinamo), Yuri Jirkov, Arseni Loqaşov (hər ikisi — Anji), Roman Şaronov (Rubin).

Yarımmüdafiəçilər: Diniyar Bilyaletdinov, Dmitri Kombarov (hər ikisi — Spartak Moskva), Vladimir Bıstrov, İqor Denisov, Viktor Fayzulin, Roman Şirokov (hamısı — Zenit), Alan Dzaqoyev (SSKA), Denis Qluşakov, Maqomed Ozdoyev, Aleksandr Səmədov (hamısı — Lokomotiv), Marat İzmaylov (Sportinq, Portuqaliya), Aleksey İonov (Kuban), Aleksandr Ryazantsev (Rubin), Oleq Şatov (Anji).

Hücumçular: Andrey Arşavin (Arsenal, İngiltərə), Artyom Dzyuba (Spartak Moskva), Vladimir Dyadyun (Rubin), Aleksandr Kerjakov (Zenit), Aleksandr Kokorin (Dinamo), Roman Pavlyuçenko (Lokomotiv), Fyodor Smolov (Anji).

## Elanlar

08.06.1987-ci il təvəllüdlü Nəbiyev Vüqar Həşim oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

1985-ci ildə anadan olan Musayev Sakit Vahid oğlunun adına Novxanıda yerləşən Bağlar İdarəsi tərəfindən verilmiş torpaq müqaviləsi itdiyi üçün etibarsız sayılır.

1963-cü ildə anadan olmuş İbrahimova Xavər Cavad qızının adına Novxanı ərazisində torpaq sahəsinə aid müqavilə itdiyi üçün etibarsız sayılır.

Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.
**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov
Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2590
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.